# Azərbaycan regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın bərqərar olmasında maraqlıdır



***Azərbaycan İkinci Qarabağ müharibəsini şanlı qələbə ilə başa çatdırmaqla ilk növbədə, özünün ərazi bütövlüyünü təmin etdi, 30 illik erməni işğalına son qoydu. Bu qələbə ilə ölkəmiz həm də regionda ən güclü orduya sahib olduğunu təsdiq etdi. Bunu regionun bütün ölkələri, eləcə də beynəlxalq aləm qəbul etdi. Azərbaycan bu qələbəsi ilə həm də Prezident İlham Əliyevin təbirincə desək, “məğlubedilməz erməni ordusu” mifini darmadağın etdi, bununla bağlı təbliğatın sabun köpüyü olduğunu göstərdi. Vətən müharibəsindəki qələbəmiz, bütün bunlarla yanaşı, Azərbaycanın regional lider dövlət olduğunu beynəlxalq aləmə əyani şəkildə nümayiş etdirdi.***

Azərbaycan qələbədən dərhal sonra məğlub olmuş, kapitulyasiya aktına imza atmış Ermənistana sülh əlini uzatdı. Rəsmi Bakı özünün tarixi qələbəsi ilə öyünmək fikrinə düşmədi. O, sadəcə olaraq dədə-baba torpaqlarını azad etdiyini dünyaya bəyan etdi və bundan sonra sülh mərhələsinin başlanmalı olduğunu, regionda təhlükəsizliyin təmin edilməsinin tarixi zərurətə çevrildiyini söylədi. Bu barədə Azərbaycan Prezidenti dəfələrlə bəyanatlar verdi. Eyni zamanda, Prezident İlham Əliyev regionda münaqişələrə son qoymağın, əməkdaşlığa başlamağın vacibliyini bildirdi. Bu əməkdaşlıq üçün yeni format ortaya qoydu: 3+3 formatı. Azərbaycan əmin olduğunu bildirdi ki, regionda təhlükəsizliyin, dinc-yanaşı yaşamanın və əməkdaşlığın yeganə yolu bütün Cənubi Qafqaz dövlətlərinin – Azərbaycan, Gürcüstan və Ermənistanın, bunlarla yanaşı, regionun böyük dövlətləri Rusiya, Türkiyə və İranın əməkdaşlığa başlamasıdır. Tezliklə məlum oldu ki, Rusiya, Türkiyə, İran və Azərbaycan birmənalı olaraq bu formatda əməkdaşlıqda maraqlıdır və bu istiqamətdə işlərin başlanması üçün regiondakı bütün kommunikasiya xətləri açılmalıdır.

Əvvəllər bir qədər tərəddüd etsə də, sonradan Ermənistan da regional əməkdaşlığa qoşulmağa vadar edildi. Ermənistan tərəfindən regionda sülhə nail olunması ilə bağlı ümidverici siqnallar eşidilməyə başladı. Baş nazir Nikol Paşinyan Azərbaycanla sülh müqaviləsi bağlanmasının vacibliyini bildirdi. Eyni zamanda, o, Azərbaycanın sülh müqaviləsi üçün baza prinsipi kimi müəyyən edərək Ermənistana təqdim etdiyi beş bəndlik təklifi qəbul etdiklərini də açıqladı. Bu, həm Rusiya, həm də Qərb tərəfindən Ermənistana sülh istiqamətli təzyiqlərin artması nəticəsində baş verdi. Şübhəsiz ki, Ermənistanın mövqeyindəki dəyişikliklər Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə keçirilmiş üçtərəfli görüşlərlə də bağlıdır. Bütün bu danışıqlar nəticəsində Ermənistanda da anlamağa başladılar ki, ölkənin gələcəyi Azərbaycanla və Türkiyə ilə münasibətlərin normallaşdırılmasından asılıdır.

Sülh prosesinin sürətləndirilməsi, eləcə də delimitasiya və demarkasiyanın mümkün qədər tez başa çatdırılması, 3+3 formatında əməkdaşlığın yaradılması və Zəngəzur dəhlizinin açılması bu istiqamətdə Azərbaycan tərəfindən irəli sürülmüş ən səmərəli təkliflər idi. Həm də bunlar təkcə Azərbaycanın deyil, elə Ermənistanın özünün də nəfinə olan məsələlər idi. Bundan əlavə, ortada 10 noyabr 2020-ci il tarixi üçtərəfli bəyanat var və onun imzalanmasından ilyarımdan artıq vaxt keçir. Ermənistan isə sülh istiqamətində real addım atmayıb.

Prezident İlham Əliyev regional lider olan dövlətin rəhbəri kimi keçirdiyi mətbuat konfranslarında dönə-dönə bəyan edirdi ki, ölkəmiz regionda sülhün və əməkdaşlığın bərqərar olmasında maraqlıdır: “…Biz onu müzakirə edirik ki, bölgədə davamlı, dayanıqlı sülh və təhlükəsizlik olsun. Bunun yeganə yolu isə əməkdaşlıqdır. Bizim məqsədimiz artıq üçtərəfli qaydada – Ermənistan və Rusiya ilə birlikdə kommunikasiyaların bərpası, Zəngəzur dəhlizinin yaradılması və nəqliyyat baxımından bütün maneələri aradan qaldırmaqdır".

Təbii ki, Zəngəzur dəhlizinin açılması region ölkələri arasında ticari və iqtisadi əlaqələrə müsbət təsir göstərəcək. Bu, bir tərəfdən, Türkiyə ilə Azərbaycan arasında quru yolu ilə birbaşa əlaqə yaratmağa imkan verəcək. Digər tərəfdən, Türkiyə üçün Mərkəzi Asiyaya qapı açılacaq və digər türk dövlətləri ilə iqtisadi əlaqələri gücləndirmək imkanı yaranacaq.

Zəngəzur dəhlizi Rusiya üçün də xüsusi önəmə malikdir. Rusiya bu dəhlizdən Cənubi Qafqaz və qonşu ölkələrə yük daşımalarında əsas marşrut kimi istifadə edə biləcək. Bu dəhliz vasitəsilə Rusiya qatarları Azərbaycan ərazisindən keçməklə Ermənistan, Türkiyə, İran və Cənubi Asiya ölkələrinə gedə biləcək. Beləliklə, Zəngəzur dəhlizi həm Türkiyə ilə Rusiya arasında ticarət əlaqələrinə müsbət təsir göstərəcək, həm də Moskvanın Türkiyə vasitəsilə Yaxın Şərqdəki bazarlara çıxışı üçün alternativ marşrut olacaq.

Bundan əlavə, dəhliz Rusiyanın forpostu hesab olunan Ermənistana quru yolla çıxış əldə etməsi deməkdir. Çünki Rusiyanın Gürcüstanla münasibətlərində ciddi problemlər olduğundan Ermənistana yük daşımalarında quru yoldan istifadə etmək mümkün deyil. Yəni dəhlizin fəaliyyətə başlamasından sonra Moskva və İrəvan arasında iqtisadi əlaqələr quru yolla daha da genişləcək. Bu da Ermənistan üçün böyük nəfəslik rolunu oynayacaq.

Zəngəzur dəhlizi Ermənistan üçün böyük perspektivlər açacaq. Belə ki, Moskva və Yerevan arasında təkcə quru yolla nəqliyyat əlaqələri yaranmış olmayacaq, həm də Ermənistanın Avrasiya İqtisadi İttifaqına çıxışı təmin ediləcək. Hazırda Ermənistanın bu təşkilatdakı əsas ticarət tərəfdaşları ilə quru yolla əlaqəsi yox səviyyəsindədir. Bu isə onun iqtisadi təhlükəsizliyinə və xarici iqtisadi əlaqələrinə mənfi təsir göstərir.

Ermənistan, eyni zamanda Zəngəzur dəhlizi vasitəsilə əsas ticarət tərəfdaşlarından olan İranla dəmir yolu əlaqəsi yaradacaq. Bu ölkə uzun illərdir ki, İranla dəmir yolu əlaqəsi yaratmağa çalışsa da, maliyyə problemi üzündən bu niyyətini reallaşdıra bilmir. Ona görə də dəfələrlə bəyan edilib ki, Ermənistan iqtisadi blokadadan çıxmaq, iqtisadi inkişafa nail olmaq istəyirsə, yeganə yol regional əməkdaşlığa qoşulmaq, Zəngəzur dəhlizinin açılmasını təmin etməkdir.

Azərbaycan Prezidenti İlham Əliyev, demək olar ki, bütün beynəlxalq görüşlərində ölkəmizin öz öhdəliklərini yerinə yetirdiyini və bu məsələdə qərarlı olduğunu qeyd edir. Azərbaycan lideri deyib: “Münaqişə artıq öz həllini tapıb. Azərbaycan bunu özü etdi və indi də Azərbaycanla Ermənistan arasında münasibətləri nizamlamaq vaxtıdır. Bizə Ermənistan rəsmiləri tərəfindən müəyyən mesajlar daxil olur. Bu yaxınlarda mənə verilən məlumata görə, bu mesajlardan biri də ondan ibarətdir ki, onlar bizim təklifimizi məqbul hesab edirlər. Bu, çox yaxşı xəbərdir”.

Azərbaycanın təqdim etdiyi beş prinsip beynəlxalq hüququn normalarını, ən müsbət beynəlxalq davranışı əks etdirir. Bu prinsiplər istənilən iki ölkə arasında dövlətlərarası münasibətlərin təməl prinsipləridir: qarşılıqlı olaraq ərazi bütövlüyünün və beynəlxalq sərhədlərin toxunulmazlığının tanınması, daha sonra sərhədlərin delimitasiyası. Prezident bu əsasda Qafqaza sülh gələcəyinə, Cənubi Qafqazın üç ölkəsi arasında fəal əməkdaşlıq yaranacağına, bu əməkdaşlığın ümumiyyətlə, daha geniş region üçün önəmli olacağına inandığını bildirmişdi. Dövlət başçısı, eyni zamanda, ermənilərin 30 illik işğal dövründə torpaqlarımızda vəhşiliklər törətdiklərini, tarixi, dini, mədəni abidələri dağıtdıqlarını, itkin düşmüş 4 min soydaşımızın taleyindən indiyədək heç bir xəbər olmadığını ATƏT sədrinin diqqətinə çatdırmışdı.

Təbii ki, Azərbaycan regionda sülh yaradılmasını, əməkdaşlıq və çiçəklənmə dövrünün başlanmasını istəyir. Bu isə hamıdan çox ermənilərin özünə lazımdır.

Bu günlərdə Prezident İlham Əliyev Rusiya XİN başçısı Sergey Lavrovu qəbul edərkən də bəyan etdi ki, regionda münaqişədən sonrakı vəziyyət, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi barədə söhbət gedəcək: “Siz bizim mövqeyimizi bilirsiniz. Bu mövqe regionda uzunmüddətli sülhün bərqərar olmasına yönəlib. Əminəm ki, göstərdiyimiz səylər Ermənistan tərəfindən də müsbət qəbul ediləcək və çoxillik qarşıdurmaya son qoyulacaq. Sülh müqaviləsi üzərində işə başlamaq barədə bizim təklifimiz hələlik cavabsız qalır, lakin biz hələ ümid edirik ki, bu təklif müsbət qəbul ediləcək”.

Prezident hələ ki, müsbət məqamlar arasında Rusiya, Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli işçi qrupun işinin intensivləşdiyini, bu yaxınlarda Sankt-Peterburqda yeni bir görüşün keçirildiyini qeyd etdi. Dövlətimizin başçısı ümid etdiyini bildirdi ki, 2020-ci il noyabr Bəyannaməsinin implementasiyası məqsədilə məhz kommunikasiyaların açılması, Azərbaycan yüklərinin və vətəndaşlarının Naxçıvan Muxtar Respublikasına maneəsiz çatdırılmasının təmin edilməsi kontekstində də praktiki addımlar atılacaq. Bu, Ermənistan tərəfinin hüquqi öhdəliyidir. Lakin təəssüf ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından ilyarımdan çox keçməsinə baxmayaraq, Bəyannamənin həmin bəndi indiyə qədər yerinə yetirilməyib: “Düşünürəm ki, bütövlükdə vəziyyətin normallaşması üçün bizim konsepsiya çərçivəsində çox praktiki addımlar atmaq mümkün olacaq. Əlbəttə, Qafqazda möhkəm sülhün bərqərar olması işində Rusiya Federasiyasının fəal səylərinə də ümid bəsləyirik”.

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***